*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.311-318*

https://doi.org/10.62837/2024.10.311

**SEVİNC ƏSGƏROVA**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dissertantı**
**E-mail: nicat4616@gmail.com**

# MİRZƏ RƏHİM FƏNANIN ELMİ TƏRCÜMEYİ-HALI (ƏDİBİN ŞƏXSİ ARXİV MATERİALLARI ƏSASINDA)

**Xülasə**

*Məqalədə XIX əsrin ikinci yarısının Qarabağ ədəbi mühitinin ən görkəmli nümayəndələrindən biri Mirzə Rəhim Fənanın (Rəhim Məmmədbağır oğlu Mirzəyevin) həyatının mühüm məqamları bilavasitə ilkin mənbələrə istinadən – ədibin şəxsi arxiv materialları bazasında xronoloji ardıcıllıqla təqdim olunur. Şairin həyatının əsasən Şuşa, qismən də Bakı dövrü mövcud faktlar əsasında təsvir edilir. Onun həyat və yaradıcılıq yolu ilə bağlı bəzi mübahisəli məsələlərə aydınlıq gətirilir. Mirzə Rəhim Fənanın AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan xatirələrinin avtoqraf nüsxəsinə istinadən onun ədəbiyyatımızda və ümumiyyətlə mədəniyyət tariximizdəki rolu müəyyən edilir, elmi tərcümeyi-halı tərtib olunur. Məqalədə həmçinin XIX əsrdə Qarabağ ədəbi-mədəni mühiti, Şuşa şəhərində fəaliyyət göstərən ədəbi məclislər, o cümlədən "Məclisi-üns" ədəbi birliyi, onun əsas üzvləri haqqında da məlumat verilir. Yeri gəldikcə mövzu ilə əlaqədar tədqiqat aparmış mütəxəssislərin əsərlərinə də istinadlar edilir.*

**Açar sözlər:** ***Mirzə Rəhim Fəna, Qarabağ, Şuşa, ədəbi mühit, "Məclisi-üns"***

**Giriş.** Mirzə Rəhim Fəna XIX əsrin II yarısı Qarabağ ədəbi mühitində xüsusi yeri və çəkisi olan sənətkarlardandır. O, Qarabağda ədəbi məclislərin yaradılmasının ilk təşəbbüskarı, Xan qızı Xurşidbanu Natəvanın sədaqətli köməkçisi, "Məclisi-üns"ün aparıcı üzvü və təşkilatçısı kimi ictimaiyyətin dərin rəğbətini qazanmışdı. O həm Şuşada, həm də Bakıda fəaliyyət göstərdiyi zaman vətənpərvər ziyalı kimi tanınmış, klassik poeziyamızın əsas aparıcı janrlarında, Azərbaycan və fras dillərində yazdığı şeirlərlə ədəbiyyatımızı zənginləşdirmişdir.

**Əsas hissə.** Rəhim Məmmədbağır oğlu Mirzəyev 1848-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini Şuşada üç sinifli mədrəsədə alan balaca Rəhim özünün fitri istedadı, elmə böyük maraq göstərməsi ilə seçilmişdir. Onun təhsil aldığı üç sinifli islam mədrəsəsi fəaliyyətini dayandırdıqdan sonra Qarabağın tanınmış alim-pedaqoqu ustad Mirzə Əbülqasım Qazinin yanında poeziya sənəti ilə bağlı nəzəri bilikləri öyrənmiş və artıq 16 yaşında olarkən "Aşiq" təxəllüsü ilə şeirlər yazmağa başlamışdır.

Mirzə Rəhim 1925-ci ildə yazdığı memuarın avtoqraf nüsxəsində təhsil ilə bağlı yazır: *"Şuşa qalasında üç sinifli, rus və türk dillərində tədris olunan islam*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 311-318*

*mədrəsəsi 1862-ci ildə fəaliyyətini dayandırdı. Şagirdlərin hərəsi bir tərəfə getdilər. Mən isə türk və fars dillərinə böyük maraq göstərdiyimə rəğmən, mədrəsə bağlandıqdan sonra təcrübəli alim Mirzə Əbülqasim Qazinin yanında ərəb ədəbiyyatı və fars dilinin çətinliklərinin təsnifinin tədrisi ilə məşğul oldum"* [6, v. 1].

Gözəl təşkilatçılıq qabiliyyəti olan Rəhim elə həmin illərdə özü kimi istrdadlı dostlarını başına toplayaraq üç nəfərdən ibarət qrup təşkil edir. Onlarla birlikdə ədəbi gecələr keçirir, yaradıcılıq müzakirələri aparır. Bir qədər sonra Hacı Abbasın yaxın qohumu Məmo da onlara qoşulur.

Mirzə Rəhim xatirələrində məşğələlərin keçirildiyi yer haqqında yazır: *"1866-cı ilin axırlarına qədər hər kəs o cənabın xidmətində öz istedadınca bəhrələndi. Tədris zamanı ədəbiyyat dərsinin müzakirəsi üçün kənar bir yer lazım olduğunu hiss edib yaxın qohumlarımdan Hacı Abbas Məhərrəm oğluna müraciət etdim və mərhum bazar başına bitişik olan mülkünün üst mərtəbəsində bizə bir otaq verdi"* [6, v. 1].

1964-cü ilədək nəzəri biliklərə yiyələnən bu dörd nəfərdə müəllifin qeyd etdiyi kimi artıq *"şeir yazmaq həvəsi"* oyanır. Ona görə də hərəsi bir təxəllüs seçərək şeir yazmağa başlayırlar. Mirzə Rəhim bu məqamı belə təsvir edir: *"Bu ildən [1864-cü ildən – S.Ə.] zövqi-şeir inşa etmək həvəsi dəxi zahir olur. Məsləki-şeirdə həmsöhbət Hacı Abbas mərhum "Agəh" təxəllüsü, Mirzə Ələsgər "Növrəs" və Rahiimin təxəllüsü "Aşiq" olur. Zövqi-şeirguluqda cavan Məmo bəy "Məmai" təxəllüs dəxi o zamanlar həvəskar olur"* [6, v. 1].

Atası Məmmədbağırın tövsiyəsi ilə rus dilini də öyrənən Rəhim bu dili unutmamaq və daha da mükəmməl öyrənmək üçün dövlət idarələrində işləməyə başlayır. Bu barədə şairin xatirələrindən oxuyuruq: *"Rus dili fəramuş olmamaqdan ötrü o sənədən [1866-cı ildən – S.Ə.] ta 1872-ci ilədək hökumət xidmətində iştiğal bular"* [6, v. 1]. Bununla yanaşı, gözəl xətti və qavrama qabiliyyəti olan Mirzə Rəhim atasının işlərinə kömək etdikcə sarayın mühasibat işlərini də öyrənir. Bunun nəticəsi idi ki, 1872-ci ildə Mirzə Məmmədbağır dünyasını dəyişdikdə ailəyə yaxından bələd olan Xan qızı Natəvan gənc Rəhimin istedadlı, səliqəli və bacarıqlı bir şəxs olduğunu nəzərə alaraq saraya dəvət edib ona atasının gördüyü işləri davam etdirməsini tapşırır.

Mirzə Rəhim bu haqda yazır: *"Təsadüfən bu ildə Xan qızının bütün mülk və məaş əməliyyatını idarə edən atam vəfat etdi və o mərhumə [Xan qızı – S.Ə] bu mühüm və vacib işi idarə etməyə məni münasib görüb hökumət işindən ayırdı"* [6, v. 1].

Sarayda işə başladığı ilk gündən Firidun bəy Köçərlinin yazdığı kimi: *"... Mirzə Rəhim Fəna cənabları ziyadə müəddəb və sahibi-mərifət bir vücud olduğundan Xan qızının rəğbətini qazanırdı"* [3, s.161].

Mirzə Rəhim şair olmaqla yanaşı, həm də gözəl xəttat idi. Bunu yaxşı bilən Xurşidbanu çəkdiyi rəsimlərin alt yazlarını yazmağı və eləcə də səliqə ilə şeirlərinin üzünü köçürməyi ona tapşırdı. O, həmçinin sarayda şeir məclisi yaratmağı da ona həvalə etdi. Bu təklif illərlə qəlbində mükəmməl ədəbi məclis yaratmaq arzusu olan

Mirzə Rəhimin ürəyindən sürpriz oldu. Qısa müddət ərzində Xan qızının sarayında yeni yaranmış ədəbi məclis fəaliyyətə başladı. Qarabağın məşhur şəxslərinin, o cümlədən Mirzə Sadıq Piranın təklifi ilə yeni yaradılan ədəbi birliyə "Məclisi-üns" adını verdilər.

Mirzə Rəhim bu hadisəni belə xatırlayırdı: *"Vilayətin arif əyanlarından olan mərhum Əbdülkərim bəy Haqverdiyev, Mehdi bəy Sarısalı, Talıb bəy Vəzirov, Mirzə Kərim bəy Nəsirbəyov, Abbas bəy Pəri oğlu, Mirzə Həsən bəy və sair şairlər məclisə gəldilər. Vəziyyətlə tanış olduqdan sonra xatircəm olub öz məclislərinə ad verməyi lazım bildilər və onu "Məclisi-üns" adı ilə adlandırdılar"* [6, v. 1].

Məclisin özünəməxsus xüsusi qaydaları vardı. Şairlik istedadı olan hər kəs vəzifəsindən, sosial durumundan və ictimai mənşəyindən asılı olmayaraq, məclisə üzv olub, onun yığıncaqlarında iştirak edə bilərdi. Bu qayda təkcə Qarabağda deyil, digər regionlarda fəaliyyət göstərən ədəbi məclislərdə də tətbiq olunurdu. Bu ədəbi birliklər özünün demokratikliyi ilə seçilirdi. "XIX əsr Azərbaycan ədəbi məclisləri" adlı qiymətli tədqiqatən müəllifi Nəsrəddin Qarayev yazır: *""Məclisi-üns"ün özünün qəbul etdiyi bir qayda da bundan ibarət idi ki, məclis üzvü olan hər hansı bir şair müstəqil şəkildə özünə təxəllüs seçə bilməzdi. Bu məsələ məclisdə qəbul olunduqdan sonra qüvvəyə minə bilərdi. Adətən məclisə təqdim olunan təxəllüslər münsiflər tərəfindən müzakirə olunar, onun "fərdi xüsusiyyəti, təbiəti, təbiinin səciyyəsi" də nəzərə alınarmış"* [4, s.155].

Məclisin ən fəal üzvlərindən olan Mirzə Rəhim də belə bir vəziyyətlə üzləşməli oldu. Xurşidbanunun böyük oğlu Mehdiqulu xanla 10-12 yaşından dost və həmsöhbət olan Mirzə Rəhim rəfiqinin şeirə meyl etdiyindən xəbərdar idi. Ona görə də məclisdə Mehdiqulu xana təxəllüs verilməsi məsələsini qaldırdı. Bu zaman ondan xahiş etdilər ki, əvvəl öz "Aşiq" təxəllüsünü dəyişsin, özgə bir ismlə əvəz etsin və sonra dostu üçün müvafiq bir təxəllüs zikr etsin. O isə cavan xan üçün"Vəfa" özü üçün isə "Fəna" təxəllüsünü təklif edir. Seçilən bu təxəllüslər məclisin ağsaqqalı Mirzə Sadıq Piranın da təsdiqi ilə, necə deyirlər, "şərəfi-qəbula yetir".

Mirzə Rəhim Xan qızının özü üçün təxəllüs seçimində də yaxından iştirak etdiyini yazırdı:*"Möhtərəm ananın [Xan qızı – S.Ə.] şeir aləminə meyli və şövqü olduğu üçün çox zaman məclis üzvləri şam və nahara dəvət olunar və maarifpərvər söhbətdən ləzzət alardılar. Belə bir vəziyyətin təsiri altında və mənim həmişə hüzurda olduğuma görə o mərhumənin xatirində xəyalati-şeir cilvə etdiyindən bəzən öz qəlb yaralarına işarə etmək qəsdilə məndən özü üçün təxəllüs seçməyi xahiş etdi. Çox vaxtlar nasaz olduğuna münasib "Natəvan" kəlməsini təxəllüs qəbul etdi"* [6, v. 1].

Mirzə Rəhim saraya gəldiyi gündən ayama qoymaqda məşhur olan Şuşa camaatı ona "Xanlıq Rəhim" ləqəbini verdi. Xan qızına və onun oğlu Mehdiqulu xana hörmət, ehtiram və sədaqətlə xidmət edən Mirzə Rəhim xanlığın təsərrüfatı, mühasibat işləri ilə əlaqədar tez-tez Tiflisə gedər və müəyyən müddət yaxın dostunun

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 311-318*

yanında qalardı. Bəzi tədqiqatçılar Mirzə Rəhimin bu səfərlərini yanlış olaraq onun Tiflisdə təhsilini davam etdirməsi ilə əlaqələndirirlər. Şairin irisinin ilk tədqiqatçılarından olan Əlabbas Müznib onun tərcümeyi-halını yazarkən bu məsələyə də münasibət bildirmişdir. O, heç bir mənbəyə əsaslanmadan Mirzə Rəhimin *"ibtidai təhsilini Şuşada alıb, sonra Tiflisdə artırmağa çalışmışdır"* qeydiylə yanlış fikir formalaşdırmışdır. Belə ki, biz şairin əldə olan şəxsi arxivindəki 62 saxlama vahidindən ibarət olan əlyazmalarını araşdırarkən heç bir sənəddə onun Tiflisdə təhsil alması, yaxud ixtisasını artırması barədə fakta rast gəlmədik. Digər tərəfdən Mirzə Rəhimin iki böyük təsərrüfatın mühasibi, yaxud dərbar münşisi olduğunu da nəzərə alsaq, bunun namümkün olması daha aydın meydana çıxar.

Mirzə Rəhim xatirələrində yazır ki, 1866-cı ildən 1872-ci ilə kimi Şuşada dövlət qulluğunda olmuşdur. 1872-ci ildən sonra isə özünün yazdığı kimi, *"həmişə hüzurunda olduğu"* Xan qızını tənha, köməksiz qoyub uzun müddətə uzağa, xüsusilə də təhsil almağa gedə bilməzdi. Əfsuslar olsun ki, bu yalnış fikrə sonrakı tədqiqatçıların yazlarında da rast gəlirik. Faktlar birmənalı şəkildə təsdiq edir ki, Mirzə Rəhim Xurşidbanu və onun oğlu Mehdiqulu xana ömürlərinin sonuna qədər öz ailəsi kimi yanaşmış, sədaqətlə xidmət etmişdir.

Əlabbas Müznib Mirzə Rəhimin tərcümeyi-halı ilə bağlı başqa bir məsələdə də səhvə yol verib. O, ədibin 1852-ci ildə anadan olduğunu qeyd edib. Bu səhv təkcə Ə.Müznibə aid deyil, 2022-ci ilə qədər yazılan bütün kitablarda Mirzə Rəhimin təvəllüd tarixi 1841, 1842, 1852-ci illər kimi göstərilmişdir. Lakin son zamanlar aparılan tədqiqat nəticəsində məlum olmuşdur ki, Mirzə Rəhim 1848-ci ildə doğulub. Belə ki, Qarabağ ədəbi mühitinin görkəmli tədqiqatçısı Raqub Kərimov "Xurşidbanu Natəvan və Şuşa mühiti" adlı məqaləsində [2, s.203] bu məsələyə aydınlıq gətirmiş, araşdırmalar zamanı əldə etdiyi iki sənədə – 1926-cı ildə Mirzə Rəhimə verilmiş mühazirəçi bileti və əmək əlilinin təqaüd kitabçasına əsasən, şairin 1848-ci ildə anadan olmasını sübuta yetirmişdir. O, məqaləsində hər iki sənədi belə təsvir edir:

*"I sənəd:*
*Müttəfiq Şuralar Cümhuriyyətlərinin Maarifi*
*üzvlük bileti № 8690*
*Elmi işçi bölməsi*
*Mirzə-Rəhim Mirzəyev, doğum. 1848.*
*$14^{20}$ / IV-26 (tərt. 1924)*
*Секция науч(ный) работ(ник)*
*Лектору Мирза-Рагим Мирзоев, род. 1848.*
*$14^{20}$ / IV-26 (сост.1924)*

*II sənəd:*
*Əmək əlinin təqaüd kitabçası № 825.*
*26 / 126, jur. № 15 VI. 76 v. RSR üzrə.*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.311-318*

*Пенс. книжка инвалида труда № 825.*
*26 / 126, жур. № 15 VI. 76 л. По II РСР.*
*Мирзаев Мирза-Рагим*" [7, v. 1].

Biz də bu faktlara əsaslanaraq şairin anadan olma tarixini 1848-ci il kimi göstərdik.

Mirzə Rəhim Fəna artıq yuxarıda qeyd etdiyimiz kimi, gənc yaşlarından bədii yaradıcılıqla məşğul olmuş, şairliyinin ən məhsuldar dövrü isə "Məclisi-üns" ədəbi birliyinin fəaliyyət göstərdiyi illərə təsadüf etmişdir. "XIX əsr Azərbaycan şeiri antologiyası"nda şair haqqında yazılır: "Klassik poeziyanın hər növündə şeirləri olmuş, lakin əsərlərinin çoxu itib-batmışdır. Fəna həm də "Tarixi-cədidi-Qarabağ" ("Qarabağın yeni tarixi") adlı əsərin müəllifidir" [1, s. 309].

M.R.Fəna haqqında AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində mühafizə olunan səkkiz vərəqdən ibarət bir sənəddə Əlabbas Müznibin Fəna ilə bağlı gördüyü işlər təsvir olunur. Ə.Müznib şairin tərcümeyi-halını yazmağa çalışmış, onun haqqında bir çox mühüm məlumatları üzə çıxarmışdır. Ə.Müznib M.R.Fənanın daha çox qəzəl və təsadüf etdiyi şeylər haqqında uzun mənzumələr yazdığını bildirmiş, onun gəncliyində yazdığı şeirlərin ixtiyar çağlarında yazdıqlarından daha yaxşı olduğunu qeyd etmişdir.

Fəna irsinin ilk tədqiqatçısı kimi ədəbiyyatımızın inkişafında müstəsna rolu olan Əlabbas Müznib şairin şeirlərinin üzünü köçürərək onları nəşrə hazırlasa da, bu işi başa çatdıra bilməmişdir. Hələ Fənanın özü tərəfindən seçilərək nəşr üçün hazır vəziyyətə gətirilmiş bu əsərləri Ə.Müznib nədənsə çap etdirməmiş, yaxud edə bilməmişdir.

Mirzə Rəhim sona qədər "Məclisi-üns"də fəaliyyətini davam etdirmiş və hətta məclisin təsisçisi Xurşidbanu dünyasını dəyişdikdən sonra da onun dağılmamasına təşəbbüs göstərmişdir. Lakin Xan qızının vəfatı Mirzə Rəhim kimi məclisin digər üzvlərində də ruh düşkünlüyü, bədbin əhval-ruhiyyə yaratdığı üçün bir müddət sonra onun fəaliyyəti dayandırılmışdır. Fəna kimi məclis üzvlərindən bəziləri onun bərpası təşəbbüsündə olsalar da, bu məramı axıra qədər davam etdirə bilməmişlər. Haşiəyə çıxaraq qeyd edək ki, mənbələrin verdiyi məlumata görə, məclisin ən gənc üzüvlərindən olan Məhəmməd ağa Müctəhidzadə Şuşada olan yeddi otaqlı mənzilində məclis üzvü olan şairləri toplasa da, bu ənənəvi hal almamış, o da məclisi yaşada bilməmişdir.

Öndə qeyd etdiyimiz kimi, Mirzə Rəhimin ən yaxın dostlarından biri, bəlkə də, birincisi Mehdiqulu xan Vəfa idi. Anasının ölümündən sonra hər iki təsərrüfatı inkişaf etdirmək üçün Mirzə Rəhimlə tez-tez görüşər və əksər vaxtlarda biri-birinə mənzum məktublar yazardılar. 1901-ci ildə Mehdiqulu xanın vaxtsız vəfat etməsi Mirzə Rəhimi dərindən sarsıdır və o artıq Şuşada qala bilməyib Bakıya köçməli olur. Beləcə onun həyatının Bakı dövrü başlayır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 311-318*

M.R.Fənanın Bakıya gəldiyi tarix dəqiq məlum deyil. Ancaq şairin arxiv sənədlərindən məlum olur ki, o, Bakıya elm adamı, ziyalı-şair kimi gəlmişdir. Mirzə Rəhimin Bakıda mədəni tədbirlərdə iştirak etməsi, Nizami, Füzuli və digər görkəmli Şərq klassikləri haqqında elmi məqalələr yazması, yubiley tədbirləri təşkil etməsi, veriliş aparması və ədəbi dərnəklərə üzv olması, Müttəfiq Şuralar Cümhuriyyətinin elm işçi bölməsinin üzvü olması dediklərimizi təsdiqləyir.

Araşdırmalar M.R.Fənanın 1925-1927-ci illərdə yaradılmış ədəbi məclis xarakterli Azərbaycan Ədəbiyyat Cəmiyyətinin Şuşa şöbəsinin də üzvü olduğunu güman etməyə imkan verir [5, s.8]. Çünki bu cəmiyyət əsasən müəllim və tələbələri, yerli şair və yazarları öz ətrafına toplamışdır. Şöbəsinin nəzdində bir çox dərnəklər təşkil olunduğu üçün onların xətti ilə tədbirlər keçirilirdi. Arxiv sənədlərində verilən məlumata görə, Mirzə Rəhim 1925-ci ildə dahi Füzulinin anadan olmasının 400 illiyinə həsr edilmiş belə tədbirlərdən birinin aparıcısı və təşkilatçısı olmuşdur.

Onun Rudəki, Firdovsi, Nizami, Sədi, Hafiz, Füzuli haqqında yazdığı məqalələri əsl tədqiqat işi adlandırmaq mümkündür. Onun şəxsi fondunda təkcə ədəbiyyat, dil haqqında deyil, elmin müxtəlif sahələrinə, xüsusilə də fəlsəfə və psixologiyaya, təbiətə, dinə, təriqətə aid çoxlu sayda yazıları mövcuddur. Bu da Mirzə Rəhimin hərtərəfli inkişaf etmiş, geniş mütaliəsi olan yaradıcı bir şəxs olduğundan xəbər verir.

Xan qızının himayəsində firavan yaşayan Mirzə Rəhimin şəxsi həyatı o qədər də şən keçməmişdir. Şairin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi fondundakı (Fond № 13) saxlama vahidi 7 olan bir əlyazmasında onun ürək ağrıları ilə yazdığı bir qeyddən məlum olur ki, sevimli övladı Qulam Rza ağır xəstəliyə düçar olmuşdur:

بعد از تشخیص مرض فرزند عزیز و گرامی غلام رضا در پطوقورسکی ملاحظه پرافیسورها اثار ناخوشی بیونک جگر ملوم شد در حالات منتهای دلتنگی و پریشانی بدرگاه یزدان عرض شد 6-5 ایول 1909

(Petiqorskidən əziz və qiymətli gövhərim olan Qulam Rzaya professorların mülahizəsi ilə cigər xərçəngi xəstəliyi diaqnozu qoyuldu. Son dərəcə kədərli və pərişan halda Allahın dərgahına getdi. 5-6 iyul 1909-cu il) [8, v. 1].

Şair bu qeydlərdən sonra fars dilində hər biri 1-2 beytdən ibarət olan bir neçə kədərli fərdlər də yazmışdır.

Bu faciəli hadisədən sarsılan ata uzun müddət özünü ələ ala bilməmişdir. Onun kədərli notlarla yazdığı şeirlər də bu dövrə təsadüf edir. Nəhayət, ictimai mühit, əhatəsində olduğu dostların qayğısı şairi nostalji hisslərdən uzaqlaşdıra, onda həyat eşqini yenidən canlandıra bildi. Lakin o daha gənclik illərində olduğu kimi odlu-alovlu şeirlər yaza bilmədi. Bu məqamı yaxşı hiss edən tədqiqatçı Əlabbas Müznib haqlı olaraq onun gənclik illərində yazdığı şeirlərinin daha yaxşı olduğunu qeyd etmişdir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.311-318*

Özündən sonra zəngin irs qoyaraq ömrünün son günlərinə qədər qələmi yerə qoymayan şair 1831-ci il fevral ayının 11-də Bakı şəhərində vəfat etmişdir.

**Nəticə.** Yekun olaraq qeyd etmək istəyirik ki, Mirzə Rəhim Fənanın şəxsi arxivindəki materiallar təkcə şairin öz tərcümeyi-halına işıq salmır, eyni zamanda onun yaşadığı dövrün ədəbi-mədəni mənzərəsini də daha dərindən öyrənməyimiz üçün geniş imkanlar yaradır. Arxiv materialları, xüsusən də şəxsi fonda daxil olan sənədlər M.R.Fənanın həyatı ilə bağlı bu vaxta qədər məlum olan faktların dəqiqləşdirilməsinə ehtiyac duyulduğu siqnalını verir. Biz gələcəkdə bu istiqamətdə tədqiqatımızı davam etdirəcəyik.

## ƏDƏBİYYAT:

1. XIX əsr Azərbaycan şeri antologiyası, tərt. ed. Və ön söz: Z.Əsgərli, – Bakı: Şərq-Qərb, – 2005. – 424 s.
2. Kərimov, R. Xurşidbanu Natəvan və Şuşa mühiti // Tarixi yerlər və abidələr IV Beynəlxalq Şuşa simpoziomu, – Bakı: 22 noyabr, ¬– 2022, – s.198-204
3. Köçərli, F. Azərbaycan ədəbiyyatı: [iki cilddə] / F.Köçərli. – Bakı: Elm, – 1981. – c.2. – 464 s.
4. Qarayev, N. XIX əsr Azərbaycan ədəbi məclisləri / N.Qarayev. – Bakı: Nurlan, – 2010. – 324 s
5. Quliyev, V. Azərbaycan ədəbiyyat cəmiyyətinin Şuşa şöbəsi // Şuşa qəzeti. – 2020, 30 noyabr. № 22 (328). – s.8.
6. Mirzə Rəhim Fəna. Xatirələri // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 13. – s.v. 13 – vərəq 1.
7. Mirzə Rəhim Fəna. Sənədləri // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 13. – s.v. 22 – vərəq 1.
8. Mirzə Rəhim Fəna. Türkcə və farsca şeirləri. Xatirələri // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 13. – s.v. 7 – vərəq 1.

**СЕВИНДЖ АСГАРОВА**

## Научная библиография Мирзы Рахима Фана (по материалам личного архива автора)

### Резюме

В статье в хронологическом порядке представлены важные моменты жизни одного из самых ярких представителей карабахской литературной среды второй половины XIX века Мирзы Рагима Фана (Рахим Мамедбагир оглы Мирзаев) с прямой ссылкой на первоисточники – в базе материалов личного архива писателя. На основе имеющихся фактов описано жизнь поэта: преимущественно период в Шуше и частично в Баку. Выясняются некоторые спорные вопросы, связанные с его жизнью и творческим путем. На основе

автографа мемуаров Мирзы Рахима Фана, хранящегося в Институте рукописей имени Мухаммада Физули НАНА, определена его роль в нашей литературе и истории культуры в целом, а также составлена его научная биография. В статье также представлены сведения о литературно-культурной среде Карабаха XIX века, о литературных собраниях, действующих в городе Шуша, в том числе о литературном объединении «Маджлиси-унс», и его основных членах. При необходимости также даются ссылки на работы экспертов, проводивших исследования по данному вопросу.

**Ключевые слова:** Мирза Рахим Фана, Карабах, Шуша, литературная среда, «Маджлиси-унс».

**SEVINGH ASGAROVA**

**Scientific bibliography of Mirza Rahim Fan**
**(based on materials from the author's personal archive)**

**Summary**

The article presents in chronological order important moments in the life of one of the most prominent representatives of the Karabakh literary environment of the second half of the 19th century, Mirza Rahim Fan (Rakhim Mammadbagir ogly Mirzayev), with direct reference to primary sources - in the database of materials from the writer's personal archive. Based on the available facts, the life of the poet is described: mainly the period in Shusha and partly in Baku. Some controversial issues related to his life and creative path are clarified. Based on the autograph of the memoirs of Mirza Rahim Fan, stored in the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS, his role in our literature and cultural history in general was determined, and his scientific biography was compiled. The article also provides information about the literary and cultural environment of Karabakh in the 19th century, about the literary collections operating in the city of Shusha, including the literary association "Majlisi-uns", and its main members. If necessary, references are also given to the works of experts who have conducted research on this issue.

**Key words:** Mirza Rahim Fana, Karabakh, Shusha, literary environment, Majlisi-uns.

**Rəyçi:** filologiya elmləri doktoru, dosent **Şahbaz Musayev**